# Sel suları və çay daşqınlarına qarşı mübarizə diqqət mərkəzindədir



**Bölgələrimizdə melioratorların əsas vəzifəsi, əlbəttə ki, kənd təsərrüfatını bol suvarma suyu ilə təmin etməkdir. Amma bununla yanaşı, aqrar sahəyə, infrastruktura, yaşayış məntəqələrinə ciddi ziyan vuran sel suları və çay daşqınları da unudulmamalıdır.**

Meliorasiya və Su Təsərrüfatı ASC bildirir ki, onun tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma və Sazlama İdarəsi Goranboy rayonunda bunula bağlı tədbirlərini uğurla davam etdirir. Qeyd edək ki, Goranboy mühüm aqrar-sənaye potensialına malikdir və buna görə də tədbirlər çərçivəsində Goranboy rayonundan axan Goran çayda tənzimləmə işləri aparılır. Uzunmüddətli gələn sel sularının gətirdiyi lil qatı çayın məcrasına dolaraq təhlükə yaradırdı. Hazırda xüsusi texnikalar vasitəsilə lildən təmizləmə işləri həyata keçirilir. Çayda 400-450 metr məcranın təmizlənməsi və suyun axınının tənzimlənməsi nəzərdə tutulub.

Ümumiyyətlə, bu rayonda sel sularına və çay daşqınlarına qarşı mübarizə, qabaqlayıcı tədbirlər görmək çox vacibdir. Qeyd edək ki, tarixən sel gəlməsi ilə müşahidə olunan Goran çayda belə hadisələr zaman-zman olub. Məsələn,1997-ci ildə sel suları magistral yolu yuyaraq Yevlax şəhərinə ciddi ziyan vurub. Bu gün isə bir daha belə hadisələrin baş verməməsi üçün qabaqlayıcı tədbirlər görülür.

Bundan başqa, idarənin texnikaları vasitəsilə sel suları nəticəsində ətrafda yerləşən əkin sahələrinə təhlükə yarada biləcək Qaraçayda da tənzimləmə işləri həyata keçirilir. Görülən işlərin həcmi Qaraçayda 10 min kubmetr olmaqla 500 metr məsafəni əhatə edir. Bu çaydan keçən sel suları qısa bir müddətdə torpaqları yuyayaraq yararsız vəziyyətə salıb. Hazırda isə görülən təxirəsalınmaz işlər nəticəsində çay öz məcrasına qaytarılıb və suyun normal axını təmin olunub.

Qeyd edək ki, hazırda Goranboy rayonundan axan Kürəkçay, Gorançay, İncəçay və Tərtər çayda paralel olaraq çay məcralarının tənzimlənməsi və çaydan keçən suların öz məcrasına qaytarılaraq normal axınının təmin olunması istiqamətində işlər davam etdirilir.

* * *

**Tərtər rayonunda da əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün bir sıra işlər görülür. Bunun üçün Tərtər Suvarma Sitemləri İdarəsi tərəfindən meliorativ tədbirlər uğurla həyata keçirilir. Artıq bu ilin məhsulu üçün əkilmiş taxıl, arpa, yem və yonca bitkilərinin vaxtında suvarılması aparılıb, taxılın biçini isə yekunlaşıb. Bundan başqa, Tərtər rayonunda bu il 3450 hektar sahədə pambıq da əkilib. Pambığın suvarılması da plana uyğun olaraq yerinə yetirilir. Hazırda Suqovuşan Su Anbarından gələn su vasitəsilə rayonda suvarma işləri davam edir.**



Tərtər Suvarma Sistemləri İdarəsi tərəfindən su itkisinin qarşısının alınması üçün torpaq məcralı kanalların lildən və kol-kosdan təmizlənməsi işləri də hazırda davam etdirilir. Bu istiqamətdə su itkisini minimuma endirmək üçün torpaq məcralı kanalların beton üzlüyə alınması da nəzərdə tutulub. Belə ki, cari ildə 2.2 kilometr uzunluqda kanalın beton üzlüyə alınması planlaşdırılır. Bundan başqa, idarənin balansında olan 4 ədəd subartezian quyusunun da təmir-bərpasına start verilib.

Qeyd edək ki, Tərtər Suvarma Sistemləri İdarəsi rayon ərazisində 29133 hektar əkin sahəsinə xidmət edir. Rayonda suvarma Tərtərçay, subartezian, İncəçay və Yuxarı Qarabağ kanalı üzərində yerləşən Bəyimsarov nasos stansiyası ilə həyata keçirilir.

Göründüyü kimi, melioratorlar bütün bölgələrimizdə əzmkarlıqla çalışır, məhsul bolluğu yaratmağa xidmət edirlər. Amma bununla yanaşı, sel sularına və çay daşqınlarına qarşı mübarizə tədbirlərini də unutmurlar.

**Nəriman CAVADOV,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 7 avqust.- S. 7.